**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki bəzi qurumların fəaliyyətinin təkmilləşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının 2.5-ci bəndinə və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aidiyyəti orqanlarla razılaşdırılmış təkliflərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Respublika Layihə Axtarış Kimyalaşdırma Stansiyasının bazasında Abşeron Regional Aqrokimya Laboratoriyası yaradılsın.

2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Quba Layihə Axtarış Kimyalaşdırma Stansiyasının, Şabran rayon aqrokimya laboratoriyasının, Xaçmaz rayon aqrokimya laboratoriyasının və Qusar rayon aqrokimya laboratoriyasının bazasında Quba Regional Aqrokimya Laboratoriyası yaradılsın.

3. Lənkəran rayon aqrokimya laboratoriyasının, Astara rayon aqrokimya laboratoriyasının, Lerik rayon aqrokimya laboratoriyasının, Masallı rayon aqrokimya laboratoriyasının və Yardımlı rayon aqrokimya laboratoriyasının bazasında Lənkəran Regional Aqrokimya Laboratoriyası yaradılsın.

4. Salyan rayon aqrokimya laboratoriyasının, Cəlilabad rayon aqrokimya laboratoriyasının, Biləsuvar rayon aqrokimya laboratoriyasının və Neftçala rayon aqrokimya laboratoriyasının bazasında Salyan Regional Aqrokimya Laboratoriyası yaradılsın.

5. Göygöl rayon aqrokimya laboratoriyasının və Goranboy rayon aqrokimya laboratoriyasının bazasında Göygöl Regional Aqrokimya Laboratoriyası yaradılsın.

6. Şamaxı rayon aqrokimya laboratoriyasının, İsmayıllı rayon aqrokimya laboratoriyasının və Ağsu rayon aqrokimya laboratoriyasının bazasında Şamaxı Regional Aqrokimya Laboratoriyası yaradılsın.

7. Şəki rayon aqrokimya laboratoriyasının, Qəbələ rayon aqrokimya laboratoriyasının, Oğuz rayon aqrokimya laboratoriyasının, Qax rayon aqrokimya laboratoriyasının, Balakən rayon aqrokimya laboratoriyasının

və Zaqatala rayon aqrokimya laboratoriyasının bazasında Şəki Regional Aqrokimya Laboratoriyası yaradılsın.

8. Tovuz rayon aqrokimya laboratoriyasının, Şəmkir rayon aqrokimya laboratoriyasının və Qazax rayon aqrokimya laboratoriyasının bazasında Tovuz Regional Aqrokimya Laboratoriyası yaradılsın.

9. Ucar rayon aqrokimya laboratoriyasının, Göyçay rayon aqrokimya laboratoriyasının, Kürdəmir rayon aqrokimya laboratoriyasının, Zərdab rayon aqrokimya laboratoriyasının və Ağdaş rayon aqrokimya laboratoriyasının bazasında Ucar Regional Aqrokimya Laboratoriyası yaradılsın.

10. Sabirabad rayon aqrokimya laboratoriyasının, Saatlı rayon aqrokimya laboratoriyasının, İmişli rayon aqrokimya laboratoriyasının, Cəbrayıl rayon aqrokimya laboratoriyasının, Beyləqan rayon aqrokimya laboratoriyasının və Füzuli rayon aqrokimya laboratoriyasının bazasında Sabirabad Regional Aqrokimya Laboratoriyası yaradılsın.

11. Bərdə rayon aqrokimya laboratoriyasının, Ağdam rayon aqrokimya laboratoriyasının, Tərtər rayon aqrokimya laboratoriyasının, Yevlax rayon aqrokimya laboratoriyasının və Ağcabədi rayon aqrokimya laboratoriyasının bazasında Bərdə Regional Aqrokimya Laboratoriyası yaradılsın.

12. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

12.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin laboratoriyalarının və regional aqrokimya laboratoriyalarının maddi-texniki təchizatının yaxşılaşdırılması və onların akkreditasiyadan keçirilməsi üçün tədbirlərin həyata keçirilməsini təmin etsin;

12.2. bu qərardan irəli gələn digər məsələləri həll etsin.

13. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 17 aprel 2015-ci il
№ 110